İPƏK YOLU, No.4, 2023, səh.71-77
DOI: 10.30546/1810-911X.2023.4.71

# SAHİBKARLIĞIN İNKİŞAFINDA VERGİ MÜNASİBƏTLƏRİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

**İbrahim Quliyev, Tural Həsənli**

Azərbaycan Universiteti, Bakı, Azərbaycan
e-mail: i.quliyev68@mail.ru, hesenlitural@yahoo.com

**Xülasə.** Məqalədə vergilərin işgüzar mühitə, sahibkarlığa təsiri, onların sayı və dərəcələri təhlil edilir. Qəbul edilən sosial-iqtisadi inkişaf proqramlarında, strategiya və konsepsiyalarda sahibkarların və dövlətin mənafələrinin koordinasiyası məsələləri öyrənilir, aparılan milli vergi siyasəti çərçivəsində sahibkarlığın inkişafı mexanizmləri araşdırılır.

**Açar sözlər:** Vergi, sahibkarlıq, gəlir, xərc, biznes, inkişaf, güzəştlər.

**DIRECTIONS FOR IMPROVING TAX RELATIONS IN THE DEVELOPMENT OF ENTREPRENEURSHIP**

**Ibrahim Guliyev, Tural Hasanli**
*Azerbaijan University, Baku, Azerbaijan*

**Abstract.** The article analyzes the impact of taxes on the business environment, entrepreneurship, their quantity and rates. The issues of coordinating the interests of entrepreneurs and the state in the adopted programs, strategies and concepts of socio-economic development are studied, the mechanisms of entrepreneurship development within the framework of national tax policy are explored.
**Keywords:** Tax, entrepreneurship, income, expenditure, business, development, concessions.

**НАПРАВЛЕНИЯ СОВЕРШЕНСТВОВАНИЯ НАЛОГОВЫХ ОТНОШЕНИЙ ПРИ РАЗВИТИИ ПРЕДПРИНИМАТЕЛЬСТВА**

**Ибрагим Гулиев, Турал Гасанлы**
*Университет Азербайджан, Баку, Азербайджан*

**Резюме.** В статье анализируется влияние налогов на деловую среду, предпринимательство, их количество и ставки. Изучаются вопросы согласования интересов предпринимателей и государства в принятых программах, стратегиях и концепциях социально-экономического развития, исследуются механизмы развития предпринимательства в рамках национальной налоговой политики.
**Ключевые слова:** Налог, предпринимательство, доходы, расходы, бизнес, развитие, льготы.

## 1. Giriş

İqtisadiyyatın və onun sahələrinin davamlı inkişafının təmin edilməsində bir sıra iqtisadi alət və tənzimləyicilərdən istifadə olunur. Onlardan biri də vergilərdir. Bu iqtisadi tənzimləmə alətləri sahibkarların xərclərinə, ardıcıl olaraq onların məhsul təklifinin həcminə, qiymət səviyyəsinə təsir göstərməklə bərabər dövlət büdcəsinə ödənişlərin kəmiyyətini də müəyyən edirlər. Nəticə etibarilə alıcıların, təsərrüfat subyektlərinin və dövlətin iqtisadi maraqları dairəsində olan vergilərin düzgün müəyyən edilməsinə diqqət həmişə yüksəkdir. Sahənin və ya onun istehsalı məhsullarının sosial-iqtisadi əhəmiyyətindən asılı olaraq, vergi dərəcələrinin, güzəşt və azadolmaların müəyyən edilməsi dövlətin vergi siyasətinin mühüm istiqamətlərindən biridir. Ona görə ki, bu məsələlərin optimal həlli vergilərin fiskal və stimullaşdırıcı

funksiyalarını yerinə yetirilməsi müstəvisində sahibkarlığın inkişafına öz müsbət təsirini göstərir.

## 2. Sahibkarlığın davamlı inkişafında vergi münasibətlərinin rolu

Ölkədə sahibkarlığın inkişafı nəticə etibarilə bütövlükdə milli iqtisadiyyatın inkişafı deməkdir. Ona nail olmaq üçün istifadə edilən mühüm iqtisadi tənzimləmə alətlərindən biri də vergilərdir. Bu baxımdan kiçik və orta sahibkarlığın vergi öhdəliklərinin sadələşdirilməsi və vergi yükünün azaldılması məqsədilə 2001-ci ildən ölkəmizdə sadələşdirilmiş vergi tətbiq olunur. Bu da sahibkarların vergi uçotunun daha sadə formada aparılmasına və onların vergi bəyannamələrini qısa zamanda təqdim etməsinə xidmət edir. Hətta sadələşdirilmiş vergi ödəyicilərinin bir qismi bu işləri vergi agenti xidmətindən istifadə etmədən yerinə yetirirlər. Onlar özləri rüblük dövriyyələrini hesablayır, elektron xidmətlərdən istifadə edərək bəyannamələrini təqdim edirlər.

Sadələşdirilmiş vergi tətbiq edildiyi dövrdə Bakı şəhərində fəaliyyət göstərən ödəyicilər üçün 4,0; Naxçıvan və digər regionlarda isə 2,0 faiz tətbiq edilirdi. Bu qrup vergi ödəyicisi olmaq üçün 2005-ci ilə qədər ümumi dövriyyə 120 min manat olmalı idi. 2015-ci il dekabrında sadələşdirilmiş vergiyə edilmiş dəyişikliyə görə ümumi dövriyyə 200 min manata qədər qaldırılmış, həmçinin dövriyyəsi 200 min manatdan artıq ticarət fəaliyyəti ilə məşğul olan ödəyicilərin vergi dərəcəsi 6%; ictimai iaşə fəaliyyəti ilə məşğul olan ödəyicilər üçün isə dərəcə 8% müəyyən edilmişdir. Bu vergi ödəyiciləri üçün digər ödəyicilərdən fərqli dərəcənin tətbiqinin səbəbi onların ümumi dövriyyəsi 200 min manatdan çox olduğu halda da həmin ödəyicilərə sadələşdirilmiş vergi ödəyicisi kimi fəaliyyətlərini davam etdirməsinə icazə verilməsi idi. Bu istiqamətdə islahatlar davam etdirilmiş və 2016-ci ildə edilmiş dəyişikliklər görə isə bir qrup ödəyicilər üçün sadələşdirilmiş vergi üzrə sabit məbləğ müəyyən edilmişdir. Bura, əsasən, müxtəlif məişət cihazlarının təmiri, fərdi yaşayış evlərində qulluqçu, bağban, dayə, sürücü fəaliyyəti, çəkməçi, fərdi foto, audio-video fəaliyyəti ilə və digər oxşar işlərlə məşqul olan şəxslər aid edilmişdir [4, maddə 218-221]. Bu qaydaya əsasən, dövriyyəsindən aslı olmayaraq, göstərilən kateqoriyadan olan şəxslər sabit vergi məbləği ödəyirlər. Bu bir tərəfdən kiçik sahibkarlığın inkişafı, digər tərəfdən isə vergidən yayınma hallarının qarşısının alınması məqsədilə atılan addımdır. Qarşıdakı dövrdə bu islahatların davam etdirilməsi və genişləndirilməsi əsasında Türkiyə modelindən istifadə etməklə, sosial statusundan aslı olmayaraq hər bir şəxsin öz gəlir və xərclərin bəyanetmə formasının tətbiqinə keçilməsi məqsədəuyğun olardı. Bu sahibkarlığın inkişafına və nəticə etibarilə büdcə daxilolmalarının artmasına, sahibkarlığın inkişafında vergi münasibətlərinin tənzimlənməsinin təkmilləşdirilməsinə səbəb ola bilər.

Ölkəmizdə sahibkarlığın davamlı şəkildə inkişafında vergi münasibətlərinin təkmilləşdirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Belə tədbirlərin keçirilməsi

məqsədləri biznes mühitin inkişaf etdirilməsindən, işsizliyinin azaldılmasından, sahibkarlar tərəfindən büdcəyə vergi daxilolmalarının artırılmasından və s. ibarətdir. Göstərilən məqsədlərə nail olmaq üçün ilk növbədə sahibkarlıq fəaliyyəti təşviq edilməsidir. Ona görə ki, ölkədə azad sahibkarlığın inkişafı müstəvisində biznes marağın artırılmsı ilə yerli və xarici investorlar tərəfindən iqtisadiyyata əsaslı investisiya qoyuluşları həyata keçirilir. Lakin bunun əksi olan vəziyyətlər də müşahidə edilə bilir ki, bu da əsas etibarilə sahibkarların fəaliyyətinə əsassız müdaxilələrlə bağlı olur. Bu müdaxilələrin çoxu müxtəlif yoxlama tədbirləri ilə əlaqələndirilir. Sahibkarların fəaliyyətinə belə yanaşmalar təbii ki, onlar tərəfindən müsbət qarşılanmır. Belə halların qarşısının alınması məqsədilə ölkəmizdə 2021-ci ilin yanvar ayının 1-dək sahibkarlıq sahəsində yoxlamaların dayandırılması barədə xüsusi fərman verilmişdir [5]. Bu müddətdə vergi yoxlamalarının yalnız insanların həyat və sağlamlığına, dövlətin iqtisadi maraqlarına təhlükə yaradan hallar üzrə aparılmasına icazə verilir. Belə halların siyahısı isə müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunur. Burada korrupsiya cinayətlərinin araşdırılması ilə əlaqədar Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən aparılan yoxlamalar istisna olunan yoxlamalar sayılır.

Sahibkarlığın inkişafı istiqamətində əhəmiyyətli layihələrdən biri də 2008-ci ilin yanvarın 1-dən fəaliyyətə başlayan “bir pəncərə” sistemidir. Bu dövrdən başlayaraq sahibkarlıq fəaliyyəti göstərmək istəyən hər bir fiziki şəxs və hüquqi şəxs başqa orqanlara müraciət etmədən lazımi sənədləri vergi orqanına təqdimt edərək qeydiyyatdan keçə bilərlər. Bu layihənin əsas üstünlüyü ondan ibarətdir ki, sənədlər yoxlanılıb qeydiyyata alındıqdan sonrakı iki gün ərzində ödəyiciyə vergi şəhadətnaməsi (VÖEN) verilir. Qeyd olunmalıdır ki, ölkə ərazisində məhdud məsuliyyətli cəmiyyət (MMC) yaratmaq istəyində olanlara nizamnamə kapitalı üzrə limit nəzərdə tutulmamışdır ki, bu da ölkədə sahibkarlığa olan marağı əsaslı şəkildə yüksəltmişdir.

Vergi sahəsində sahibkarlara edilən növbəti güzəştlərdən biri də vergi ödəyicilərinin 01 yanvar 2017-ci il tarixinə olan vergi borclarının tənzimlənməsi haqqında qanunun (30 dekabr 2016-cı il) qəbul edilməsi ilə bağlıdır [6]. Həmin qanuna əsasən vergilərin ödənilməməsinə görə hesablanmış faizlər və maliyyə sanksiyaları üzrə 01 yanvar 2017-ci il tarixinə vergi orqanlarındakı şəxsi hesab vərəqələrində mövcud borcların silinməsi nəzərdə tutulmuşdur. Maliyyə sanksiyaları üzrə yaranmış vergi borclarının 2017-ci ilin yanvar ayı ərzində 30 faizi ödənildikdə qalan 70, yanvar-fevral ayları ərzində 50 faizi ödənildikdə qalan 50, yanvar-mart ayları ərzində 70 faizi ödənildikdə isə ödənilməmiş 30 faizin silinməsi nəzərdə tutlmuşdur [6].

Vergi ödəyicilərinin əksəriyyəti kiçik və orta sahibkarlıq fəaliyyətilə məşğul olan şəxslərdir. Qanunvericiliyə əsasən, vergi ödəyiciləri gəlir və xərclərinin uçotunu aparmalı, yaranmış vergi öhdəliyini dövlət büdcəsinə ödəməlidirlər. Bu uçotu hər bir ödəyici özünəəlverişli olan formada aparır. Onların bəziləri müxtəlif kompyuter proqramlarından istifadə edir, digərləri isə kağız sənədlər üzərində qeydlər aparırlar. Əlaqədar orqanlar qanvericiliyin tələblərindən çıxmamaq şərtilə uçotun aparılması qaydalarına apramalarına müdaxilə etmirlər. Burada vergi ödəyicilərinin yalnız kassa və hesablama metodları ilə uçot

aparmaları tələb olunur. Kassa metodu ilə uçot gəlir və ya xərclə bağlı vəsait bank və ya kassa hesabına faktiki daxil olduqda və ya çıxdıqda aparılır. Hesablama metodu ilə uçot isə gəlirin əldə edilməsi bağlı hüquq və ya xərcin çəkilməsilə bağlı öhdəlik yarandıqda aparılır. Bu metodlardan hər hansı birinin seçilməsində vergi ödəyicisi sərbəstdir, lakin o, vergi ilinin əvvəlində uçotun aparılması forması ilə bağlı vergi orqanına məlumat verilməlidir. İlin sonuna qədər seçilmiş metodun dəyişdirilməsinə yol verilmir, çünki əks halda xərc və ya gəlir iki dəfə uçota alına bilər.

Qeyd edilməlidir ki, ödəyicilər tərəfindən mühasibat və vergi uçotu ayrı-ayrılıqda aparılmalıdır, çünki bəzən mühasibat uçotunda xərc və ya gəlir kimi tanınan bölümlər vergi uçotunda nəzərə alınmır və müəyyən fərqlər yaranır. Ona görə də gələcəkdə bu uçot formaları üzrə vahid sistemin yaradılması məqsədəuyğun olardı.

Ölkəmizdə mütəmadi olaraq, sahibkarların uçot qaydalarının sadələşdirilməsi istiqamətində kompleks tədbirlər həyata keçirir. Belə tədbirlərdən biri ictimai iaşə və pərakəndə ticarətlə məşğul olan ödəyicilərin uçotunun aparılması ilə bağlıdır. Beləki, 19 aprel 2017-ci il tarixdə ictimai iaşə fəaliyyəti sahəsində vergitutma məqsədləri üçün gəlirlərin və xərclərin uçotunun aparılması, eləcə də pərakəndə ticarət fəaliyyəti sahəsində vergitutma məqsədləri üçün gəlirlərin və xərclərin uçotunun aparılması qaydaları təsdiq edilmişdir [7]. Bu qaydaların təsdiqi müvafiq sahələrdə fəaliyyət göstərən sahibkarların öz işlərini vahid uçot qaydasında davam etdirmələrinə dəstək olmuşdur.

## 3. Sahibkarlıq fəaliyyətində vergi güzəştlərinin və azadolmalarının sosial-iqtisadi əhəmiyyəti

Sahibkarlıq subyektlərinə edilən güzəştlər və ya azadolmalar ölkənin iqtisadi inkişafı və əhalinin sosial rifah halının yüksəldilməsi məqsədlərinə xidmət edir. Ona görə də sahibkarlar tərəfindən onlara edilən güzəşt və azadolmalar düzgün qiymətləndirməlidir. Bu məsələyə birtərəfli yanaşılmamalıdır və dövlətin də maraqları nəzərə alınmalıdır, çünki bu siyasəti həyata keçirməkdə dövlətin öz konkret məqsədləri var. Başqa sözlə, sahibkarların onlara edilən güzəştlərdən şəxsi mənafələri üçün istifadə etməməlidirlər. Bəzi sahibkarların bu imtiyazlardan istifadə edib, uçotu düzgün aparmamaları vegidən yayınma halları şəklində ölkə iqtisadiyyatına mənfi təsir göstərir. Belə halların qarşısın almaq üçün güzəşt və azadolma sahələrində monitorinqlər aparılmalıdır. Sahibkarlar onlara edilən güzəşt və azadolmaların müvəqqəti xarakter daşıdığını nəzərə almalı və imtiyazlardan təyinatı üzrə istifadə etməlidir. Daha doğrusu, verilən imtiyazdan əldə edilən gəlirlər biznesin inkişafına yönləndirilməlidir.

Sahibkarlarla vergi orqanları arasında münasibətlərdə şəffaflığın qurulması, vergilərin tam həcmdə ödənilməsindən yayınmaların qarşısının alınması, ölkə ərazisində vergi ödəyicilərinin bir-biri ilə qarşılıqlı iqtisadi münasibətlərində obyektivliyin qorunması məqsədilə ölkəmizdə elektron qaimə sistemi tətbiq olunur və bu sahədə kağız qaimələrdən

istifadə olunması qadağandır. Bu, bir tərəfdən elektron xidmət istifadəçilərinin sayının artmasına, digər tərəfdən isə vergi ödəyicilərininn əvvəllər kağız qaimələrə çəkdikləri xərclərin azaldılmasına xidmət edir. Bununla yanaşı elektron qaimələrdən istifadə vergi orqanlarının işlərini də asanlaşdırmışdır, çünki vergi ödəyicilərinin fəaliyyətinə onlar tərəfindən elektron qaydada nəzarət etmək imkanlari yaranır. Ölkə ərazisində e-qaimələrdən istifadənin genişləndirilməsinə baxmayaraq, bəzən subyektlər bu yeniliklərə qarşı biganə qalmağa çalışırlar.Vergi ödəyicilərindən bəziləri hələ də vergidən yayınmaq, e-qaimədən istifadə etməmək kimi hərəkətlərə yol verirlər. Bunun başlıca səbəbləri kimi, belə ödəyicilərin mühasiblərinin olmaması və özəl xidmətlərdən istifadə etmələrinin bu sahədə davamlılığın təmin olunmasına şərait yaratmaması göstərilə bilər. Nəzərə alınmalıdır ki, sistemin tətbiqinin üstünlükləri üzrə vergi ödəyiciləri davamlı şəkildə maarifləndirilməlidirlər.

Bununla yanaşı qeyd olunmalıdır ki, vergi sisteminin inkişaf strategiyasının başlıca məqsədi qeyri-neft sektorunun inkişaf etdirilməsi nəticəsində sahibkarlığa dövlət dəstəyinin artırılmasıdır. Strategiyanın nəticəsi olaraq, texno və sənayə parklarında fəaliyyətə başlayan hüquqi və fiziki şəxslərin yeddi il müddətinə, park sahibləri müddətsiz, vergilərdən azad olunmuşdur. Bundan başqa uşaq bağçaları on il müddətinə, fiziki şəxslər isə bank depozitlərindən əldə etdikləri faizilərə görə gəlir vergisindən azad edilmişdir [8,s.146].

Sahibkarları düşündürən əsas məsələ onların yaxın gələcəkdə əldə etmək imkanlarında olduqları gəlirlərdir. Ona görə də onlar vergi ödəyiciləri olaraq, ödədikləri vergilərin məbləğinin azaldılmasında maraqlıdırlar. Digər tərəfdən isə dövlət öz funksiyalarını yerinə yetirmək, ölkədə sosial-iqtisadi məsələlərin həllini təmin etmək məqsədilə əsas maliyyə mənbəyi olan vergi ödənişlərinin artırılmasında maraqlıdır. Bu maraq dövlətin başlıca məqsədindən irəli gəlir. Həmin məqsəd uzunmüddətli perspektivdə ölkə əhalisinin həyat səviyyəsinin yüksəldilməsini təmin edən dayanıqlı inkişaf üçün şəraitin yaradılmasıdır.

Vergi münasibətləri subyektlərinin davranış qaydalarının hazırlanması və təsdiq olunması vergi ödəyiciləri tərəfindən həmin qaydalara riayət olunması tələbini qarşıya qoyur. Vergi ödəyiciləri isə dövlət tərəfindən fərdlərin, sosial qrupların bacarıqlarının reallaşdırılmasına və bütövlükdə cəmiyyətin inkişafına, istehsal-istehlak nisbətlərinin tənzimlənməsinə, mülkiyyət hüquqlarının qorunmasına zəmanət verən tədbirlərin həyata keçirilməsini gözləyirlər.

Azərbaycanda vergi siyasəti çərçivəsində sahibkarlığın inkişafının stimullaşdırılması və vergi ödəyicilərinin hüquqlarının genişləndirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilmişdir. Vergi ödəyicilərinin hüquqlarının qorunması, onlara göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi məqsədilə vergi qanunvericiliyinin təkmilləşdirilməsi, vergi ödəyicilərinin maarifləndirilməsi üzrə kompleks tədbirlər görülmüşdür. Dövlət başçısının müvafiq sərəncamı ilə vergi orqanları və tədiyyəçilər arasında qarşılıqlı etimadın və şəffaflığın artırılması, əlverişli biznes mühitin zəmnində milli iqtisadiyyatın davamlı inkişafı məqsədləri naminə vergi potensialının qiymətləndirilməsi, vergi islahatlarının davam etdirilməsi üzrə tədbirlər sistemi işlənib hazırlanır.

Sahibkarlığın inkişafının stimullaşdırılması, əlverişli biznes mühitinin formalaşdırılması və vergi yükünün optimallaşdırılması məqsədilə ölkə başçısı tərəfindən ardıcıl olaraq mühüm qərarlar verilir. Göstərmək olar ki, 06 dekabr 2016-cı il tarixdə təsdiq olunmuş milli iqtisadiyyat və iqtisadiyyatın sektorları üzrə strateji yol xəritələrində neft-qaz sənayesinin, kənd təsərrüfatının, kiçik və orta sahibkarlığın, ağır sənaye və maşınqayırmanın, ixtisaslaşmış turizm sənayesinin, logistika və ticarətin, mənzil təminatının, peşə təhsili və təliminin, maliyyə xidmətləri sektorunun, kommunal xidmətlərin, telekommunikasiya və informasiya texnologiyalarının inkişafı sahəsində perspektiv dövr üçün mühüm prioritetlər müəyyən edilmişdir. Onların reallaşdırılması üçün dövlətin vergi siyasətində və müvafiq qanunvericilikdə davamlı təkmilləşdirmələr aparılır.

Ümumiyyətlə, sosial-iqtisadi inkişafda vergilərin rolunun müəyyən edilməsinə mövcud yanaşmalar dörd əsas meyar üzrə təsnifləndirilir:

- Vergilərin funksional təyinatı;
- Dövlətin iştirak dərəcəsi;
- Təsir obyekti və ya istiqaməti;
- Təsir alətləri.

Dövlətin sosial-iqtisadi inkişafa vergi mexanizmi vasitəsilə təsir dərəcəsinin artması vergilərin rolunu əhəmiyyətli dərəcədə yüksəldir. Vergi amilinin iqtisadi artım modelinə tətbiqi gələcəkdə vergilərin sosial-iqtisadi əhəmiyyətinin daha geniş tədqiq olunmasını tələb edir. Sosial-iqtisadi kateqoriyalardan biri olan vergilər müxtəlif subyektlər arasında milli gəlirin ədalətli bölgüsü və dövlətin sosial-iqtisadi strategiyasının reallaşdırılmaması alətidir.

Hazırda dünya ölkələrində baş verən iqtisadi böhranlar vergi siyasəti vasitəsilə iqtisadi artıma təsir imkanlarını daha da aktuallaşdırmışdır. İqtisadi artımın təmin edilməsinə yönəldilən vergi siyasəti müxtəlif ölkələrdə fərqli nəticələrə gətirib çıxara bilər. Bu, bilavasitə vergi mexanizmlərinin mürəkkəbliyi, sosial xarakterli amillər və insan amili ilə əlaqədardır. Müxtəlif ölkələrin vergi sistemlərinin bir-birindən fərqli olması səbəbindən bütün ölkələrdə iqtisadi artımı stimullaşdıran vahid siyasətin formalaşdırılması qeyri-mümkündür.

Qloballaşma, inteqrasiya və rəqəmsal iqtisadiyyatın inkişafı iqtisadi artımı stimullaşdıran və aşağıdakı cəhətləri özündə birləşdirən vergi sisteminin formalaşdırılmasına zəmin yaradır:

- Vergilərin məhsul və xidmətlərin maya dəyərinə birbaşa təsiri qlobal iqtisadiyyatda, rəqabət mühitində iqtisadiyyatın müxtəlif sektorlarında nisbi üstünlüklər yaradır;

- Turizmin və sərhədboyu ticarətin sahəsində, adətən, ixraca tətbiq olunmayan əlavə dəyər vergisi və ixrac azadolmaları xarici rezidentlər tərəfindən ölkə daxilində məhsul istehsalını stimullaşdırır;

- Əmək bazarında baş verən dəyişikliklər müstəvisində yüksək ixtisaslı kadrlardan yüksək dərəcələr üzrə gəlir vergisinin tutulması əmək miqrasiyasına təsir göstərir;

- Tətbiq edilən korporativ vergilərin dərəcəsi transmilli şirkətlərin məhsul istehsalı üçün ölkə seçiminə birbaşa təsir göstərir. Beləki, yüksək vergi dərəcəli ölkələrdən aşağı vergi dərəcəli ölkələrə kapital axını baş verir. Bu, bir daha sübut edir ki, iqtisadi artımın stimullaşdırılması məqsədilə aparılan vergi siyasəti xarici ölkələrin vergi siyasəti ilə uzlaşdırılmalıdır.

**Nəticə.** Vergi sistemində aparılan islahatların əhatə dairəsinə və nəticələrinə istinadən deyə bilərik ki, sahibkarlığın inkişafı, ona hərtərəfli dövlət dəstəyi məqsədilə ölkəmizdə lazımi imkanlar və şərait yaradılır. Vergi güzəştləri və azadolmalarından əlavə onlara dövlət tərəfindən maliyyə-texniki dəstək də göstərilir. Ona görə də hazırkı dövrdə milli sahibkarların əsas vəzifəsi onlara edilən güzəştlərdən vəhərtərəfli dəstəkdən yararlanaraq, ölkəmizin inkişafına töhfə verməkdən ibarətdir.

## Ədəbiyyat

1. Azərbaycan Respublikasının Vergi Məcəlləsi (düzəlişlərlə), (2023), Bakı.
2. Məmmədov F.Ə., Musayev A.F. və b. (2010), Vergilər və vergitutma. Dərslik, Bakı.
3. Rzayev Z.H, Xəlilov Ş.İ. (2008), İqtisadi tərəqqi və vergi siyasəti. Bakı.
4. http://www.taxes.gov.az/modul.php?name=qanun&cat=3 maddə 218-221
5. https://www.president.az/articles/16498
6. http://www.taxes.gov.az/borc/
7. http://economy.gov.az/article/sahibkarligin-inkishafi-sahesinde-aparilmish-islahatlar/28700
8. http://www.taxes.gov.az/uploads/neshrler/vergiyegirishderslik.pdf